Oktyabrın 1-də Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev Qərbi Azərbaycan İcmasında "Mənim Qərbi Azərbaycanım – xatirələr" adlı kitabın təqdimatına həsr olunan dəyirmi masada iştirak edib.



**01.10.2025-ci il tarixində keçirilmiş “Mənim Qərbi Azərbaycanım – xatirələr” kitabının təqdimatında rektor Anar Nağıyevin nitqi:**

Hörmətli həmkarlar, əziz həmvətənlər!

Bu gün Dövlətimiz ötən əsrlərdən Ermənistan tərəfindən işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlara məruz qalan Azərbaycanlıların əzəli torpaqları olan Qərbi Azərbaycana qayıdışı, tarixi ədalətin bərpası istiqamətində böyük işlər görür. Vətən müharibəsində zəfər çalmış, antiterror əməliyyatları ilə suverenliyini bərpa etmiş qalib xalqın tarixi torpaqlarına qayıtmaq istəyi onları bu məqsəd ətrafında birləşdirir. Bu istiqamətdə Qərbi Azərbaycanlıların səsinin dünyaya çatdırılmasında böyük işlər görülür.

Prezident İlham Əliyevin 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə “Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin” deməklə tarixi həqiqətlərin dünyaya çatdırılmasının önəmini vurğulamış, Qayıdış Konsepsiyasının hazırlanmasının vacibliyini bildirmişdir.

**Hörmətli dəyirmi masa iştirakçıları,**

Bu gün təqdimatına toplaşdığımız bu kitab da Qərbi Azərbaycan irsimizin qorunması istiqamətində sadə insan hekayələrinin toplanması baxımından vacibdir.

Qərbi Azərbaycan, eləcə də tarixi yaddaşımızın qorunmasına xidmət edən istənilən fəaliyyət təqdirəlqayiqdir. Bu kitabın ən mühüm xüsusissiyyəti sadə metodolgiyanın tətbiqi ilə soydaşlarımızın xatirələrini toplamaq, onların öz doğma yurdlarından köçürülmə anındakı hissləri və həyatını əks etdirməsidir. Kitabla tanış olduqdan sonra aşağıdakı nəticələri sanki bir daha özülyündə təsdiq edirik:

> Aşıq Ələsgəri sevməyimizin kökündə yalnız musiqi və qanla gələn folklora sevgi dayanmır. Aşıq Ələsgər və onlarla xalq musiqisinin nümayəndələrinə sevgimizin mərkəzində dövlətə, tarixə və milli dəyərlərə bağlılıq dayanır. Bu kitabda da mənim gəldiyim ilk nəticə sonuncu deportasiyadan 35 ildən çox vaxtın keçməsinə baxmayaraq xalqımızın hər bir üzvünün yaddaşında qalan Qərbi Azərbaycana xas milli mənəvi dəyərlərin qorunmasıdır. Və biz bir xalq olaraq, bunun yalnız bir tərəfli olmadığının şahidiyik. Qarabağ və Şərqi Zəngəzur düşmən tapdağından azad olduqdan sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin çıxışlarında Şuşanın ruhunu düşmənin dəyişə bilməməsi haqqında fikirlərinə dəfələrlə rast gəlmişik. Bəli, düşmən Şuşanın və digər ərazilərimizin Azərbaycanlı ruhunu dəyişə bilmədiyi kimi, Qərbi Azərbaycanın da ruhunu dəyişə bilməz.

Bu ruh, təqdimatına toplaşdığımız kitabda da bölüşülmüş xatirələrdə görünür. Misal olaraq, maddi-mənəvi tariximizə aid 350 adda eskponatı düşmən talanından qoruya bilməsinə və Ulu Öndər Heydər Əliyevin buna münasibətinə dair Bəxşeyiş Ələmşahovun xatirlərini qeyd edə bilərik.

Bunu biz hər təqdimatda, hər kiçik məqalədə hiss etdiyimiz kimi, təqdim edilən kitabdan da yan keçmir. Ağbaba Mahalından xatirlərəində Gədəbəydə müəllim çalışan Xuraman Məmmədovanın da nümunəsində rast gəlirik. Xuraman xanım çox az sayda ermənilərin yaşadığı mahalda Azərbaycanlılara qarşı edilmiş haqsızlıqlar, qədim türk qəbisrtanlığının dağıdılması və digər təcavüzlərin fonunda xalqımızın adətlərinin, xüsusi ilə Novruz bayramı adətlərinin onların milli duruşunun və sağqalmasının mərkəzində duran amillərdən biri olduğuna işarə edir.

Bu kitabda da biz erməni vəhşiliyinin sistemliliyinin növbəti misallarını görürük. Kitabda anasının xatirələrini bölüşən, Qərbi Azərbaycanda doğulmuş Bilasuvardan olan müəllim Çinarə Həmzaəyevanın da gətirdiyi erməni vəhşiliyinin nümunələrini biz tariximizin gedişatında rast gəldik. Sanki, Qarabağ və Xocalıda törədilən cinayətlərin ayrı-ayrı elementlərini oxuyururq.

Şirvan şəhərindən olan riyaziyyat müəllimi Hafiz Vəliyevin Axta kəndindən olan qoca nənəsi Qocamız Xətai ananın (özü belə adlandırır) dilindən hər birimizə xatırlatmalar edir:

Əslim İravanlıdı
Sinəm çarpaz dağlıdı, Nə
gələn var, nə gedən, Məgər
yollar bağlıdır?

Bunun ən bariz numnəsi Mahirə Nağıqızının yaradıcılığıdır. Mahirə xanımın əsərlərində, bayatılarında və tədqiqatlarında, eləcə də BSU konfranslarındakı çıxışlarında nənə və babalarımızın milli kimliyimizin qorunmasına xidmət edən gündəlik həyatının parçalarına çox rast gəlirik.

Atamnan yanaşı daş qaldırardı, Bilirdi
o daşlar ocaq daşıdı.
Bir dəfə yoruldum, beszdim-demədi. Anam
sinəsində ocaq daşıdı.

Nazlı xanıma xitabən deyilən bu misralara Azərbaycan qadının gücü, qoruyucu və yaradıcı missiyası, nəsilləri yaşatma və bu günümüzü gələcəyə daşıma missiyasının gözəl ifadələrindən biri olmaqla, analarımızın öz yurdlarına bağlılığının növbəti göstəricisidir. Məhz bu güc və sevgi dəyərlərimizin yaşadılmasına səbəb olmuşdur.

**Qərbi Azərbaycanda baş verənlər bir daha böyük savaşların mərkəzində olmağımızı göstərir.** Xatirələrdən də göründüyü kimi, erməni xislətinin arxasında daha böyük qüvvə dayanmış, istər sonuncu deportasiyada, istər ondan qabaqki deportasiya və cinayətlərdə, istərsə də hələ 18-19-cu əsrlərdə əzəli torpaqlarımızda erməni dövlətçiliyi üçün zəminlərin hazırlanmasında kənar gücün rolu çox bəllidir.

Kitabdakı xatirələrdən də görünür ki, ermənilərin hədələrinə, təxribatlarına baxmayaraq Azərbaycanlılar qorxmur, özünə məxsus olan dəyərləri qorumağa çalışırdılar. Kitabda xatirəsi paylaşılmış Lətif Abbasovun qeyd etdiyi kimi, Əzizbəyov rayonunun bir küçəsində ermənilər təşkil olunmuş qaydada Qarabağın Ermənistana birləşdirilməsini tələbə edirldilərsə, digərində azərbaycanlıların bu hadisələrə etiraz mitinqləri keçirilidi. Oğuzdan olan müəllim Sahilə Ağayevanın dediyi kimi, 1988-ci ildə tərk etdikləri Gölkənd kəndinin 7 sakini Qarabağ uğrunda döyüşlərdə şəhid oldu, iki nəfəri itkin düşdü. Bu hal isə, doğulduğu yerdən asılı olmayaraq, hər bir Azərbaycanlının vətən və dövlət sevgisinin özəyini təşkil edir.

Bu kitabdan bir daha bəlli olur ki, milli yaddaşın qorunmasında və gələcək nəsillərə ötürülməsində təhsilin, sadə dillə deəsk məktəbin böyük rolu vardır. Məktəb həm tarixin yaşadılması, həm milli kimliyin qorunması, həm də vətən sevgisinin dərinləşməsinə xidmət edir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qeyd etdiyi kimi, vətəni azad edən Azərbaycan əsgərinin milli dəyərlər və vətənpərvər böyüməsində müəllimin rolu böyükdür.

Biz təhsil işçilərinin xoşbəxt nəsliyik ki, bu gün orta məktəb proqramlarımızda “Zəfər tarixi” fənni keçirilir. Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı dərslərinin tədris dilinin xarici dillərdə aparıldığı siniflərdə də ana dilimizdə keçirilməsinin milli kimlik və yaddaşımıza müstəsna xidmət göstərməsi baxımından əhəmiyyətini hər birimiz bölüşür, fürsətdən istiffadə edərək, ETN-ə təşəkkür edirik.

**Hörmətli həmkarlar,**

Biz universitet olaraq həqiqətlərin dünyaya çatdırılmasında üzərimizə düşən böyük məsuliyyətin fərqindəyik. Bizim bu fəaliyyətimiz cənab Prezidentin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqinin tələbləri və Qərbi Azərbaycana Qayıdış konsepsiyasının əsasında qurulur.

Bakı Slavyan Universiteti Qərbi Azərbaycanın mədəni-tarixi irsinin araşdırılması istiqamətində tədqiqatlara önəm verir. 2024-cü ilin sentyabrında Qərbi Azərbaycan Elmi-Tədqiqat Mərkəzi təsis etdik. 2025-ci ilin fevralın 13-də BSU-da "Konstitusiya və Suverenlik ili" çərçivəsində "Qərbi Azərbaycan tədqiqatlarda: çağırışlar və perspektivlər" mövzusunda elmi konfrans keçirdik, Qərbi Azərbaycan-Elmi Tədqiqat Mərkəzinin rəsmi açılışında iştirak etdik. Tədbirdə Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli və digər həmkarlar iştirak edirdilər.

BSU-da Qərbi Azərbaycana Qayıdışla bağlı bir sıra maarifləndirici tədbirlər, konfranslar, dəyirmi masalar, sərgilər təşkil olunmuşdur. 2024-cü ilin mayın 24-də Bakı Slavyan Universiteti və Sosial Tədqiqatlar Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Qərbi Azərbaycana Qayıdış: Tarixi irsin izi ilə" elmi-praktiki konfransda "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz" və "Qərbi Azərbaycana qayıdış: tarixi torpaqlarda maddi-mədəni irsimiz" kitablarının təqdimatı baş tutmuşdur. Bu ilin martın 25-i tarixində "Yeni dövrün Azərbaycanı: Qərbi Azərbaycan irsi və milli-mədəni dəyərlər" mövzusunda tədbir təşkil olunmuşdur. 7–8 may 2025-ci il tarixlərində keçirilən "Azərbaycanşünaslığın aktual məsələləri: Yeni dövrün Azərbaycanı" beynəlxalq elmi konfransının bölmələrindən biri "Qərbi Azərbaycan: milli irs və Qayıdış

hüququ” adlanmışdır. Həmçinin, ötən il, 2024-cü ilin mayın 7-də Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş "Azərbaycanşünaslığın aktual məsələləri. Yeni dövrün Azərbaycanı” beynəlxalq elmi konfransının bölmələrindən ikisi (1. Qərbi Azərbaycanda təhsil və maarifçilik məsələləri. 2. Qərbi Azərbaycan tarixi-mədəni kontekstdə) Qərbi Azərbaycana həsr olunmuşdur. Konfrans çərçivəsində Türkiyənin Ərzincan Binali Yıldırım Universitetinin professoru Ali Kafkasyalının "Qərbi Azərbaycan təlim və tərbiyəsində aşıq ənənəsinin yeri və əhəmiyyəti" mövzusunda elmi seminarı keçirilmişdir. Konfransın Qərbi Azərbaycana həsr edilmiş bölmələrindən birini professor Mahirə Nağıqızı və mənim sədrliyimiz ilə ADPU- nun Quba filialında təşkil etdik. BSU-da Qərbi Azərbaycanla bağlı Elmi diskursun genişləndirilməsi, Qərbi Azərbaycan mövzusunda elmi nəşrlərin sayının artırılması istiqamətində bir sıra stimullaşdırıcı tədbirlər görülmüşdür. BSU-nun Elmi Şurasının 09 iyul 2024-cü il tarixli qərarı ilə təsdiq edilmiş “Qərbi Azərbaycanın mədəni-tarixi irsinin tədqiqatlarına dəstək mexanizmi yaradılmışdır. Qərbi Azərbaycanın filoloji irsi, Qərbi Azərbaycanın tarixi irsi, Qərbi Azərbaycanın maarifçiliyi istiqmətlərində nominasiyalar üzrə mükafat təsis edilmişdir (**hər bir təqdimat üçün 2000 azn məbləğində pul mükafatı ayrılmışdır).

Bu çərçivədə BSU-nun Türkologiya kafedrasının professor-müəllim heyəti tərəfindən “Qərbi Azərbaycan şivələrinin leksikasının tədqiqi” adlı dərs vəsaiti nəşr olunmuşdur.

Qeyd etməliyəm ki, dərs vəsaitinin elmi redaktoru Mahirə Nağıqızıdır. Eləcə də, BSU Elmi Şurasının qərarı ilə professor Mahirə Hüseynova və BSU-nun Pedaqogika və psixologiya kafedrasının müdiri professor Piralı Əliyev tərəfindən tərtib edilən ali təhsilin magistratura səviyyəsi üçün “QƏRBİ AZƏRBAYCAN

FOLKLORU ETNOPEDAQOGİKA MƏNBƏYİ KİMİ” fənn proqramı çap olunmuşdur. Auditoriyalarda tədrisi həyata keçirilir.

**Qərbi Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq müstəvidə çatdırılması istiqamətində Bakı Slavyan Universiteti tərəfindən bir srıa tədbirlər görülməkdədir.** BSU tərəfindən “Qərbi Azərbaycana Qayıdış” Konsepsiyası müxtəlif slavyan dillərinə, eyni zamanda İngilis, Alman, Özbək dillərinə (ümumilkdə 11 dil) tərcümə edilərək müvafiq beynəlxalq platformalarda təqdim olunmuşdur. 2025-ci ilin aprelin 30-da BSU-nun Bolqarıstan Respublikasının Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində yerləşən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzində “Qərbi Azərbaycan” guşəsi yaradılaraq Qərbi Azərbaycana aid kitabların və “Qərbi Azərbaycana Qayıdış” Konsepsiyasının bolqar dilinə tərcümə olunmuş nəşrlərinin nümayişi olunmuşdur. Bu ilin May ayının 23-də Polşanın Torun şəhərində keçirilən XII Asiya Konqresində çıxışım zamanı bölmə zallarının girişində nəşrlər üçün ayrılmış yerlərdə “Qərbi Azərbaycana Qayıdış” Konsepsiyasının polyak dilinə tərcümə edilmiş nüsxələri təqdim edilmişdir. Həmçinin, 2 iyun 2025-ci il tarixində Daşkənddə keçirilən “Study in Azerbaijan” təhsil sərgisi çərçivəsində konsepsiyanın özbək dilinə tərcümə olunmuş variantı ziyarətçilərə təqdim edilmişdir.

2025-ci ilin aprel və may aylarında Bolqarıstanın Sofiya Universiteti və Albaniyanın Tirana Universitetində 200 nəfərədək yerli tələbə və professor-müəllim heyəti qarşısında etdiyim “Azərbaycan regional lider və etibarlı tərəfdaş kimi” mövzusundakı mühazirələrdə Qərbi Azərbaycan mövzusuna da toxunulmuşdur.

Qeyd etməliyəm ki, Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin “Konstitusiya və suverenlik ili” elan etməsindən sonra BSU-nun müvafiq fəaliyyət planı təsdiq edilmişdir. Fəaliyyət planına uyğun olaraq ən

böyük və davamlı tədbirimiz "Yeni dövrün Azərbaycanı" – Rektorun şagirdlərlə görüşü - adlı seminarların təşkilidir. Seminarlar ölkəmizin müxtəlif şəhərlərində yerləşən ümumitəhsil müəssisələrinin yuxarı sinif şagirdləri üçün təşkil edilir. Seminarlarda Konsitutusiya və suverenlik tariximiz, Ulu Öndər Heydər Əliyevin və Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi roluna dair geniş mühazirələr oxunur. Seminarların milli kimlyimizin gənc nəslə öyrədilməsi baxımından vacib hesab edirik. Qeyd etmək istərdim ki, bu günədək Naxçıvan şəhəri, Quba rayonu Alekseyevka kəndi, Xırdalan şəhəri, Bakının Nəsimi və Suraxanı rayonları, Sədərək rayonu, Gəncə şəhəri olmaqla 7 seminarda 2000 nəfərə yaxın şagird iştirak etmişdir. Seminarları ETN-nin dəstəyi ilə, yerli YAP təşkilatları və müvafiq regionlardan olan YAP-dan seçilmiş millət vəkillərinin iştirakı ilə həyata keçiririk. Hörmətli Firudin müəllimin burada iştirakından istifadə edərək, ETN- ə göstərdikləri dəstək üçün bir daha dərin təşəkkürümü bildirirəm.

**Hörmətli həmkarlar,**

Cənab Prezident İlham Əliyevin 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə dediyi kimi Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsi hamımız üçün çox önəmlidir - həm Qərbi Azərbaycandan olan insanlar üçün, həm də bütün Azərbaycan xalqı üçün önəmlidir. Prezidentimizin vurğuladığı kimi Qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət həyata keçirməliyik.

Bu işdə hər birimizə uğurlar arzu edirəm.